*“ Professional Financial Experts” MMC*

*Vöen: 1007450831*

*Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən*

*Auditə İcazə № AT/ 254 – Verilmə tarixi 26.09.2022*

*Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəs., sıra 3 ev 23A*

*Telefon: iş:(012) 5696559; mobil: (051) 2517731*

**E-mail:rashad.hasanov23@gmail.com**

---

**№ JM8fCvrbfs** **“31” oktyabr 2024-cü il**

**“ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ”**

**PHŞ-nin TƏSİSÇİLƏRİNƏ**

**“ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ” PHŞ-nin (VÖEN: 1603161411) 01.01.2023-cü ildən 31.12.2023-cü ilədək olan dövrün maliyyə hesabatlarının auditi üzrə**
**MÜSBƏT RƏY**

Biz “Enerji Məsələlərini Tənzimləmə Agentliyi” PHŞ-nin 01.01.2023-cü ildən 31.12.2023-cü ilədək olan dövrün maliyyə vəziyyətinə dair hesabatından, mənfəət və zərər və digər məcmu gəlirləri hesabatından, kapitalda dəyişiklik hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Agentliyin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, mənfəət və zərər və digər məcmu gəlirlərini, kapitalda dəyişikliklərini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəyin bildirilməsi üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik tələblərə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və rəyimizin formalaşmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Rəhbərliyin və auditini apardığımız Agentliyin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və

düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığına, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Agentliyin audit yoxlamasının aparılmasında məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir

**İcraçı:**

**"Professional Financial Experts"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti (İCAZƏ-AT/254 26 Sentyabr 2022-ci il)**
**direktor-auditor: Həsənov Rəşad Novruz oğlu**

**"31" oktyabr 2024-cü il**

*"Enerji Məsələlərini Tənzimləmə Agentliyi" PHŞ*
*31 Dekabr 2023-cü il tarixə*
*Maliyyə vəziyyəti haqqında hesabat*

| *Azərbaycan manatı ilə* | İzahlı qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 6 | 112.358 | 81.133 |
| Torpaq, tikili və avadanlıqlar | 5 | 5.990.640 | 6.094.125 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | 1.000 | 1.000 |
| Sair uzunmüddətli aktivlər | | 246.222 | 18.540 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **6.350.220** | **6.194.798** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal və material ehtiyatları | 2 | 6.738 | 1.175 |
| Qısamüddətli debitor borcları | 3 | 1.270 | 1.804 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1 | 2.524.081 | 5.829.972 |
| Sair qısamüddətli aktivlər | 4 | 16.934 | 3.391 |
| **Cəmi qısamüddətli aktivlər** | | **2.549.023** | **5.836.342** |
| **Cəmi aktivlər** | | **8.899.243** | **12.031.140** |
| **Kapital və Öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 9 | 7.914.367 | 7.914.367 |
| Bölüşdürülməmiş mənfəət (yığılmış zərər) | | (1.627.889) | 1.086.469 |
| **Cəmi kapital** | | **6.286.478** | **9.000.836** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 34.626 | 335.329 |
| Qısamüddətli kreditor borcları | 7 | 693.158 | 333.098 |
| Sair qısamüddətli öhdəliklər | 8 | 1.884.981 | 2.361.877 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **2.612.765** | **3.030.304** |
| **Cəmi öhdəliklər** | | **2.612.765** | **3.030.304** |
| **Cəmi kapital və öhdəliklər** | | **8.899.243** | **12.031.140** |

Samir Axundov
İdarə Heyətinin sədri

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

Tamilla Əhmədova
Baş mühasib

*Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat*

| *Azərbaycan manatı ilə* | İzahlı qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Cəmi gəlirlər** | | **11.950.884** | **4.499.897** |
| Gəlirlər (ödənilmiş haqlar) | 10 | 11.941.720 | 4.499.897 |
| Sair gəlirlər | 11 | 9.164 | - |
| **Cəmi xərclər** | **12** | **(14.664.745)** | **(13.978.844)** |
| Əmək haqqı üzrə xərclər | | (8.323.988) | (8.402.150) |
| Vergi və sosial ayırmalar | | (1.996.626) | (2.027.343) |
| İl üzrə köhnəlmə və amortizasiya ayırmaları | | (315.049) | (288.833) |
| İcarə xərcləri | | (687.384) | (641.575) |
| Ezamiyyə xərcləri | | (100.301) | (102.952) |
| Kommunal xidmətlər | | (122.839) | (62.929) |
| Dəftərxana və təsərrüfat xərcləri | | (14.646) | (23.275) |
| Rabitə və poçt xərcləri | | (96.914) | (107.641) |
| Yanacaq xərcləri | | (85.092) | (84.002) |
| İcbari dövlət sığortası və rüsumlar | | (19.662) | (18.864) |
| Cari təmir xərcləri | | (335.010) | (41.345) |
| Bank komissiya xərcləri | | (29.456) | (28.447) |
| Üzvlük haqları | | (4.578) | (4.743) |
| Hüquq və digər peşəkar xidmətlər | | (6.500) | (5.000) |
| Təlim, seminar və iclasların təşkili, keçirilməsi və iştirak xərcləri | | (11.672) | (10.538) |
| Sair xərclər | | (2.515.028) | (2.129.207) |
| Məzənnə fərqindən xalis zərər | | (497) | (396) |
| **Vergidən əvvəl mənfəət (zərər)** | | **(2.714.358)** | **(9.479.343)** |
| Mənfəət vergisi | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(2.714.358)** | **(9.479.343)** |

Samir Axundov
İdarə Heyətinin sədri

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

Tamilla Əhmədova
Baş mühasib

*"Enerji Məsələlərini Tənzimləmə Agentliyi" PHŞ*
*31 Dekabr 2023-cü il tarixə*
*Kapitalda dəyişikliklər haqqında hesabat*

| *Azərbaycan manatı ilə* | İzahlı qeydlər | Nizamnamə Kapitalı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (yığılmış zərər) | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **9** | **7.914.367** | - | **10.565.812** | **18.480.179** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | - | - | - | - |
| Xalis mənfəət (zərər) | | - | - | (9.479.343) | - |
| Kapitalın istifadəsi | | - | - | - | - |
| **Kapitalın maddələr arasında köçürmələrindən əvvəl 31 dekabr 2022-ci il tarixə qalıq** | **9** | **7.914.367** | | **1.086.469** | **9.000.836** |
| Kapitalın maddələr arasında köçürmələr | | - | - | - | - |
| **01 yanvar 2023-cü il tarixə qalıq** | **9** | **7.914.367** | - | **1.086.469** | **9.000.836** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | - | - | - | - |
| Xalis mənfəət (zərər) | | - | - | (2.714.358) | - |
| Kapitalın istifadəsi | | - | - | - | - |
| **Kapitalın maddələr arasında köçürmələrindən əvvəl 31 dekabr 2023-ci il tarixə qalıq** | **9** | **7.914.367** | | **(1.627.889)** | **6.286.478** |
| Kapitalın maddələr arasında köçürmələr | | - | - | - | - |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **9** | **7.914.367** | - | **(1.627.889)** | **6.286.478** |

Samir Axundov
İdarə Heyətinin sədri

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ * ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ *

Tamilla Əhmədova
Baş mühasib

*"Enerji Məsələlərini Tənzimləmə Agentliyi" PHŞ*
*31 Dekabr 2023-cü il tarixə*
***Pul vəsaitlərinin hərəkəti haqqında hesabat***

| *Azərbaycan manatı ilə* | **İzahlı qeydlər** | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödəniləsi haqlar üzrə ödənişlər | | **11.465.358** | 11.102.797 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **11.465.358** | **11.102.797** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | (3.760.129) | (3.036.206) |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | | (10.634.788) | (10.211.866) |
| Məzənnə fərqi üzrə xərclər (gəlirlər) | | (497) | (396) |
| Sair ödənişlər | | (129.313) | (158.109) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **(14.524.727)** | **(13.406.577)** |
| **Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması)** | | **(3.059.369)** | **(2.303.780)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | - | - |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | (246.522) | (285.832) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(246.522)** | **(285.832)** |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | - | - |
| **Pul vəsaitlərinin artması (azalması)** | | **(3.305.891)** | **(2.589.612)** |
| **Dövrün əvvəlinə olan qalıq** | 1 | **5.829.972** | **8.419.584** |
| **Dövrün sonuna qalıq** | 1 | **2.524.081** | **5.829.972** |

Samir Axundov
İdarə Heyətinin sədri

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

Tamilla Əhmədova
Baş Mühasıb